# Səbail

# 2015-ci ilin 6 ayının yekunları müzakirə olunmuşdur

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclasındakı nitqindən irəli gələn vəzifələr Səbail Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın rayonun sənaye müəssisələri, təsərrüfat xidmətləri, təhsil, səhiyyə müəssisələri, hüquq mühafizə orqanları rəhbərlərinin, bələdiyyələrin, din xadimlərinin, gənclər təşkilatının və rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən iclasında ətraflı müzakirə olunmuşdur.**



İclasda **Səbail Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası barədə ətraflı məlumat verərək diqqətə çatdırmışdır ki, 6 ay ərzində ölkəmiz dinamik inkişaf etmiş, iqtisadiyyat 5,7 faiz, qeyri-neft sektoru 9,2 faiz artıb. Sənaye istehsalı təxminən 4 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artıb. Ölkədə inflyasiya 3,5 faiz, əhalinin pul gəlirlərində artım 6,2 faiz olub. Kənd təsərrüfatında 7,3 faiz artım qeydə alınıb ki, bu da ölkə başçısının apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir.

Hesabat dövründə Səbail rayonu üzrə iri sənaye müəssisələri tərəfindən 7 milyard 797,2 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz çox sənaye məhsulu istehsal edilmişdir və xidmətlər göstərilmişdir. Nəqliyyat müəssisələri tərəfindən 214,3 milyon manatlıq və ya keçən ilin müvafiq dövrünə nisbətən 5,5 faiz çox nəqliyyat xidmətləri, rabitə müəssisələri tərəfindən isə 65,9 milyon manatlıq və ya keçən ilin müvaifq dövrünə nisbətən 5,3 faiz çox rabitə xidmətləri göstərilmişdir.

6 ay ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya 3 milyard 460,6 milyon manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 34,6 faiz artmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyanın həcmi 2 milyard 288,9 milyon manat və ya əvvəlki dövrlə müqayisədə 2,1 dəfə çox olmuşdur.

Yanvar-iyun aylarında rayonun pərakəndə ticarət şəbəkəsindən əhaliyə 109,1 milyon manat məbləğində və ya ötən ilin eyni dövründən 22,7 faiz çox istehlak malları satılmışdır.

Həmin dövrdə xidmət müəssisələri tərəfindən əhaliyə 130.5 milyon manatlıq pullu xidmət göstərilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2.8 faiz çoxdur.

2015-ci ilin yanvar-may ayları üzrə Səbail rayonunda çalışan işçilərin sayı 111217 nəfər, orta aylıq əmək haqqının məbləği isə 1089,6 manat olmuşdur ki, bu da keçən illə müqayisədə 12,3 faiz çoxdur.

6 ay ərzində Səbail rayonu ərazisində 1034 yeni iş yeri açılmışdır. Bunlardan hamısı daimi iş yerləridir.

Hesabat dövrü ərzində Bakı Su İdmanı Sarayının, "İnturist" otelinin, Veloparkın, Avropa Oyunları Parkının, Dövlət Bayrağı Meydanı ərazisində "YARAT" Müasir İncəsənət Mərkəzinin, yeni Daş salnamə muzeyinin, Azərbaycan Evinin, Bayıl bulvarının, Avropa Oyunları Parkının qarşısında yaradılmış parkın, Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi yolunun 4-6 kilometrlik hissəsində bağlantı yollarının və Bayıl bulvarında inşa olunmuş piyada keçidinin, "Sülh ağacı" abidəsinin, "Kiçik Venesiya şəhərciyi"ndə Avropa Qonaqpərvərlik Klubunun Beynəlxalq Avrasiya Mətbuat Fondunun yeni baş ofisinin binasının açılış mərasimləri keçirilmiş, əsaslı təmirdən sonra Bakı İdman Sarayı istifadəyə verilmişdir.

Hazırda rayonda "Alov qüllələri" kompleksinin, Dənizkənarı Milli Parkda "Xəzər www.aterfront" istirahət-əyləncə-alış-veriş mərkəzinin, Badamdar qəsəbəsində Bakı Media Mərkəzinin, Müasir Avropa məktəbinin, yeni Xəstəxananın, yeni İdman Kompleksinin, yeni hotelin və 3 ədəd yeni su anbarlarının, mərkəzdə yeni "İnterkontinental" və "Dinamo" mehmanxanalarının, yeni İş mərkəzinin, 20-ci sahədə Səbail rayon Prokurorluğunun yeni inzibati binasının, Əhəd Yaqubov küçəsində Ali Neft Məktəbi üçün yeni idman və yataqxana komplekslərinin, kütləvi informasiya vasitələri işçiləri üçün 17 mərtəbəli, 255 mənzilli yeni binanın, Səbail RİH-in həyətində 9 saylı Xəzinədarlıq İdarəsi üçün yeni binanın tikintisi, Bayıl dairəsində genişmiqyaslı abadlıq işləri, Dövlət başçısının tapşırıqlarına əsasən Dənizkənarı Milli Parkın Bibiheybət qəsəbəsinə kimi genişləndirilməsi və burada yeni istirahət guşələrinin yaradılması, R.Mustafayev adına İncəsənət muzeyinin əsas binasının və 190 saylı orta məktəbin əsaslı təmiri davam edir.

Badamdar şosesində 2,2 km məsafədə yolun 3 metrəyədək genişləndirilməsi, təmiri və asfaltlaşdırılması ilə bağlı işlər sona çatdırılmışdır.

Prezident cənab İlham Əliyevin tapşırıqlarına əsasən rayon ərazisindəki tarixi əhəmiyyətli binaların bərpası və qorunması istiqamətində çoxmərtəbəli yaşayış binalarının fasadlarının təmiri və üzlənməsi işləri davam etdirilmişdir.

Hesabat dövrü ərzində Bünyad Sərdarov, Həsən Seyidbəyli, Şeyx Şamil, Lermontov, Mehdi Hüseyn, Cəfərov qardaşları, Üzeyir Hacıbəyov, Rəsul Rza, Qoqol küçələrində səki kənarlarına yeni bordürlərin qoyulması, səkilərin təmiri və dekorativ daş düzülməsi, küçələrə yeni asfalt qatı salınması işləri aparılmışdır.

Ötən il ölkəmizdə Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsünün təsisçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə start götürmüş "Ümumrespublika Yaşıllaşdırma" marafonu layihəsinin ikinci mərhələsi çərçivəsində rayonun müxtəlif yaşayış məntəqələrində bir neçə ağacəkmə aksiyası keçirilmiş, bu zaman 7 min ədəd yeni ağac, 35 min ədəd dekorativ gül kolu, 5 min kvadratmetr sahədə qazon otu əkilmiş, əvvəl əkilmiş ağaclara qulluq göstərilmişdir.

Bu il iyun ayının 12-dən 28-ə kimi Azərbaycanda ilk dəfə olaraq çox böyük və mötəbər idman yarışması – ilk Avropa Oyunları keçirilmişdir. Həmin Oyunlarla bağlı paytaxtımızın mərkəzi rayonu olan Səbail rayonunda da böyük hazırlıq və genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür. Belə ki, Oyunların keçirildiyi məkanların 5-i — Su İdmanı Sarayı, Avropa Oyunları parkı, Bakı İdman sarayı, Velopark və Dövlət Bayrağı Meydanındakı "Crystal-Hall" zalı, həmçinin "Bakı-2015" Əməliyyat Komitəsinin baş ofisi məhz Səbail rayonunda yerləşmişdir.

Oyunlara hazırlıq dövründə Su İdmanı Sarayının tikintisi ilə bağlı həmin ərazidəki fərdi yaşayış evlərinin, qeyri-yaşayış və digər təyinatlı tikililərin sökülməsi, sakinlərin köçürülməsi təmin olunmuş və genişmiqyaslı abadlıq işləri aparılmışdır. Su İdmanı Sarayı yaxınlığında, Bibiheybət yolunun başlanğıcında hərəkətin intensivliyi nəzərə alınaraq yeni yeraltı keçid inşa olunmuşdur.

Yeni tikilmiş Su İdmanı sarayı, "Baku Sport City" və Şıx ərazisindəki "Velopark" ilə bərabər, Bakı İdman Sarayında əsaslı təmir-yenidənqurma və Dövlət Bayrağı Meydanındakı "Crystal-Hall"da da təmir işləri aparılmış, bu obyektlər yarışlara tam hazır vəziyyətə gətirilmişdir.

Rayonun təsərrüfat xidmətləri tərəfindən bir sıra işlər həyata keçirilmişdir. Belə ki, Səbail rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən bir sıra binalara gedən istilik xətlərində, bir sıra binaların dam örtüyündə təmir işləri aparılmış, su və kanalizasiya xətləri dəyişdirilmiş, mərkəzdəki bir sıra binaların fasadı təmir olunmuş, rəngləmə işləri və gündəlik olaraq ərazidə abadlıq-təmizlik işləri görülmüşdür.

Səbail rayonunun Elektrik Təchizatı və Satış İdarəsi, Səbail rayon Qaz İstismar Sahəsi, Səbail rayon Sukanal Departamenti tərəfindən sakinlərin elektrik enerjisi, təbii qaz, içməli su ilə təminatının yaxşılaşdırılması üçün tədbirlər həyata keçirillmişdir.

2015-ci ilin 6 ayı ərzində Səbail rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinə ünvanlı sosial yardım almaq üçün 187 ailə (709 ailə üzvü) müraciət etmiş, hər bir ailə üzvünə 37,79 manat olmaqla, orta hesabla hər bir ailəyə 143,31 manat sosial yardım təyin olunmuşdur.

Dövlət Sosial Müdafiə Fondu Səbail rayon şöbəsində qeydiyyatda olan 13165 nəfər təqaüdçülərə ilin ilk 6 ayı ərzində 20.213,0 min manat təqaüd və müavinət ödənilmiş, ödənişlərdə gecikmələrə yol verilməmişdir.

Səbail rayon Məşğulluq Mərkəzinə ilin 6 ayı ərzində 693 nəfər iş axtaran vətəndaş müraciət etmiş, onların 483 nəfəri daimi işlə təmin olunmuşdur.

Hesabat dövründə Mərkəzdə aktiv Məşğulluq tədbiri olan "Əmək Yarmarkaları" keçirilmiş, tədbirlərdə mərkəz tərəfindən 6 nəfər işaxtaran vətəndaş daimi işlə təmin olunmuşdur. "Ərazi Məşğulluq Proqramı"na əsasən cari ilin birinci yarısı ərzində 16 nəfər iş axtaran vətəndaş üçün mərkəzdə "Kompüterçi dizayner" peşə kursu, 12 nəfər iş axtaran vətəndaş üçün "Qənnadçı" peşə kursu, 16 nəfər iş axtaran vətəndaş üçün "Kompüter istifadəçisi" peşə kursu, 32 nəfər iş axtaran vətəndaş üçün "İngilis dili" peşə kursu, 12 nəfər iş axtaran vətəndaş üçün "II dairə üzrə elektrik quraşdırıcısı" peşə kursu və 12 nəfər iş axtaran vətəndaş üçün "Bərbər" peşə kursu açılmışdır ki, bu kurslara cəlb olunanların 54 nəfəri gəncdir.

Hesabat dövründə Səbail Rayon İcra Hakimiyyəti tərəfindən bir sıra tədbirlər keçirilmişdir. Novruz bayramı ərəfəsində rayon ictimaiyyətinin nümayəndələri ənənəvi olaraq rayonun hamilik etdiyi, cəbhənin ön xəttində yerləşən hərbi hissənin şəxsi heyətinə rayonun orta ümumtəhsil məktəblərinin şagirdləri tərəfindən hazırlanmış bayram sovqatlarını çatdırmış, incəsənət ustaları tərəfindən onlara böyük bayram konserti təşkil olunmuşdur.

May ayında Bakı Şəhər İcra Hakimiyyətinin Komissiyası Bakı şəhərində keçirilən "Gül bayramları"nda nümayiş etdirilən kompozisiyalara baxışlara yekun vurmuş və Bakı Şəhər İcra Hakimiyyətinin qərarına görə, Səbail Rayon İcra Hakimiyyəti II yerə layiq görülmüşdür.

İclasda Səbail rayon MKTB-nin rəisi Elbrus Əhmədov, Dövlət Sosial Müdafiə Fondu Səbail rayon şöbəsinin müdiri Cavid Abdullayev, Səbail rayon Su-kanal Departamentinin rəisi Rauf Osmanov, rayon əhalinin sosial müdafiə mərkəzinin direktoru Rəna Əliyeva və başqaları çıxış etmişlər, əldə olunmuş nailiyyətlərlə yanaşı, həm də həllini gözləyən problemlər, çatışmazlıqlar və onların aradan qaldırılması yolları, rayonda aparılması nəzərdə tutulan abadlıq işləri, rayondakı dini durum və vətəndaşların müraciətləri ilə bağlı görülən işlər də müzakirə olunmuşdur.

**İsrafil KƏRİMOV.**





